**Prezident İlham Əliyevin həyata keçirdiyi bir çox islahatların nəticəsi kimi, son 17 ildə dövlət büdcəsinin artan imkanları sosial problemlərin həllinə yönəldilib. Bununla da ölkəmizdə insan kapitalının sürətli inkişafına xidmət edən çoxsaylı qərarlar qəbul olunub. Dövlətimizin başçısının 2003-cü ildə qarşıya qoyduğu vəzifələrdən biri regionların inkişafını təmin etmək, əyalətlə paytaxt arasında sosial-iqtisadi və mədəni fərqləri azaltmaq idi. Məhz bunun nəticəsidir ki, indi şəhərlərdən kəndlərə axın güclənib, yeni iş yerlərinin yaradılması hesabına insanların həyat şəraiti getdikcə yaxşılaşıb. Maaşlar və pensiyalar dəfələrlə artırılıb.**

# Azərbaycan Prezidentinin imzaladığı sərəncam pensiyaçıların rifahını daha da yaxşılaşdırmaq məqsədi daşıyır

Burada bir uğuru da xatırlatmaq istərdim. Bu gün hakimiyyətlə xalq arasında anlaşma və etimad məsələsində Azərbaycanın, hətta inkişaf etmiş ölkələrin reytinqlərində ən yüksək pillələri tutması məhz sosial siyasətin dəqiqliyi, əhatəliliyi hesabına əldə olunub.

Ümumiyyətlə, dünyada çox az ölkə tapılar ki, sosial siyasətin təzahür formalarının müxtəlifliyinə görə respublikamızla müqayisə oluna bilsin. Son bir neçə ildə Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin istehlak tələbinə uyğun artırılması və indeksləşdirilməsi, əhalinin real gəlirlərinin bazar səviyyəsinə uyğunlaşdırılması Azərbaycan dövlətinin çoxşaxəli sosial siyasətinin təzahür formalarının yalnız bir hissəsidir.

Respublikamızda insanların yaşayış səviyyəsinin, sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində aparılan siyasət və görülən tədbirlər sübut edir ki, hər bir vətəndaşın mənafeyi Azərbaycanın dövlət siyasətində önəmli yer tutur. Ölkəmizin dinamik iqtisadi inkişafı, maliyyə resurslarımızın artması, dövlətimizin vətəndaş rifahına yönələn sosial siyasəti məsələlərin daha ardıcıllıqla həll edilməsinə, hökumətin sosial siyasətinin bu istiqamətdə davam etdirilməsinə əlverişli imkan yaradır.

Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində



genişmiqyaslı tədbirlər bu gün də davam etdirilir. Ölkə rəhbərinin pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 5 fevral 2021-ci il tarixli sərəncamı da bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin davamı, müdafiəsini gücləndirmək məqsədilə imzaladığı sərəncam COVID-19 pandemiyasının dünya ölkələrinin, eyni zamanda, Azərbaycanın iqtisadiyyatına mənfi təsir göstərdiyi bir vaxta təsadüf edir. Lakin buna baxmayaraq, respublikamızda insanların sosial ödənişləri vaxtlı-vaxtında verilir, hətta vətəndaşlara, sahibkarlara dövlət yardımı da göstərilir. Bir sözlə, bu gün dövlət siyasətində prioritet istiqamətlərdən biri olan insanların sağlamlığının və normal yaşayışının təmin edilməsi diqqət mərkəzində saxlanılır. Çünki dövlətimizin siyasətinin mərkəzində insan amili dayanır və Prezident İlham Əliyevin də məqsədi insanların sağlamlığının qo-



silsilə tədbirlərin növbəti mərhələsidir. Bütün bu tədbirlər insanların sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını daha da artırmaq məqsədinə xidmət edir.

Yeri gəlmişkən, onu da deyim ki, möhtərəm Prezidentimizin pensiyaçıların sosial runması ilə yanaşı, ölkəmizin iqtisadi dayanıqlılığının təmin edilməsi fonunda sosial müdafiə tədbirlərini həyata keçirməklə əhalinin sosial rifahını daha da yaxşılaşdırmaqdır.

*Cəlil BAXŞIYEV,*
*YAP Lerik rayon təşkilatının sədri*

Xalq qəzeti 2021.- 12 fevral.- S.5.